Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Prezidentin dünyada vaksin ədalətsizliyinə qarşı mübarizəsi - Azərbaycanın multikultural dövlət mahiyyətinin təzahürü...

**Martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin daha bir qlobal təşəbbüsü müzakirəyə çıxarılıb. Bunun nəticəsində qətnamə qəbul edilib.**

"COVID -19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında COVID-19 əleyhinə peyvəndlərin ədalətsiz və qeyri-bərabər bölüşdürülməsi məsələsinin insan hüquqlarından istifadəyə mənfi təsiri məsələsinə diqqəti çəkir. Bunun pandemiyanın tamamilə aradan qaldırılmasında, eləcə də BMT-nin Dayanıqlı İnkişaf Gündəliyində nəzərdə tutulan məqsədlərə nail olunmasında başlıca əngəllərdən biri olduğunu vurğulayır.

**İlham Əliyevin təşəbbüsü ilə çağırılmış BMT Baş Assambleyasının koronavirusa qarşı Xüsusi Sessiyası tarixi əhəmiyyətli tədbir kimi...**

Qeyd etmək yerinə düşər ki, bu, son dövrlərdə Azərbaycanın səyi nəticəsində müzakirəyə çıxarılan ilk belə mövzu deyil. Misal üçün, ötən il dekabrın 3-də Prezident İlham Əliyevin təşəbbüsü ilə çağırılmış BMT Baş Assambleyasının koronavirusa qarşı Xüsusi Sessiyasında dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr baş tutdu. Həmin vaxta qədər COVİD 19-la bağlı planetin ən böyük təşkilatı olan BMT bu mövzuda dünya dövlətlərinin bir araya gəldiyi belə genişmiqyaslı tədbir keçirməmişdi. Ona görə də bir çox ekspertlər dünyanın qarşılaşdığı bu ağır durumda məhz Prezident İham Əliyevin təşəbbüsü ilə çağırılmış BMT Baş Assambleyasının koronavirusa qarşı Xüsusi Sessiyasını tarixi əhəmiyyətli tədbir kimi qiymətləndirir. Təsadüfi deyil ki, həmin vaxt dünyanın bir çox dövlətləri bu məsələ ilə əlaqədar BMT Baş katibinə ünvanlanan məktublarında Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında irəli sürülmüş və çox ehtiyac duyulan təşəbbüs olduğu vurğulayırdılar. Mart ayında qəbul edilmiş qətnamə bu gün üçün kifayət qədər həssas və aktual mövzunu əhatə edir. Dünyanın varlı dövlətlərin vətəndaşlarının COVİD-19 əleyhinə artıq bir neçə aydır peyvəndlənməyə başlamasına baxmayaraq, planetin yarısından çoxu hələ də vaksinlərin imkansız ölkələrə gəlməməsindən əziyyət çəkir.

**Zəngin Qərb dövlətlərinin dünyaya vaksin ədalətsizliyi nümayiş etdirməsi...**

Bəşəriyyətin üzləşdiyi bu çətin dönəmdə üçüncü dövlətlər üçün vaksinləşmənin əlçatan olmasının vacibliyi bugünə qədər bir neçə dəfə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müxtəlif kürsülərdə qaldırılıb. Bir müddət əvvəl dövlət başçısı çıxışlarının birində bildirmişdi: "Azərbaycan dünyadakı "ədalətsiz vaksin bölgüsü"nə qarşıdır. Çünki bizim dövlətimiz mənəvi dəyərlərə hər zaman hörmətlə yanaşmış, birliyi, həmrəyliyi, humanizmi daim təbliğ və tərənnüm etmişdir. Odur ki, zəngin Qərb dövlətlərinin dünyaya vaksin ədalətsizliyi nümayiş etdirməsi, digər insanların həyatını təhlükə altında saxlamasına ölkə olaraq səssiz qala bilməzdik. Çünki 44 günlük Vətən müharibəsində Azərbaycana insan hüquqları və humanizm dərsi keçmək istəyən Qərb dövlətləri ədalətsiz vaksin bölgüsünə imza ataraq necə "demokrat" olduqlarını sübut etdilər".

Xatırlatmaq yerinə düşər ki, həm ÜST, həm də tibb üzrə ayrı-ayrı ekspertlərin fikrincə, dünyadakı bu qlobal bəlanın qarşısının alınması üçün peyvəndlənmə ilə kütləvi immun sistemi qazanmaq, COVID-19-a qalib gəlmək mümkündür. Təəssüflər olsun ki, hələ də peyvənd əldə edə bilməyən ölkələr yetərincədir.

**Bu təşəbbüs də qısa müddət ərzində qlobal dəstək qazandı...**

Azərbaycan Cənubi Qafqazda peyvəndləməyə başlamış ilk ölkə olsa da, digər ölkələrin vaksin əldə edə bilməməsindən narahatlığını daim dilə gətirir. Vaksinasiya ilə bağlı Azərbaycandakı yaxşı vəziyyətə baxmayaraq, ölkəmiz dünyada humanizmə və insanlığa töhfə vermək baxımından bu proseslərdə də inkişaf etməkdə olan və üçüncü dünya ölkələrini yaddan çıxarmır. Martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində qəbul edilən qətnamə Prezident İlham Əliyevin 1 fevral tarixində Azərbaycan Dövlət Televiziyasına müsahibəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin COVID əleyhinə peyvəndlərin dünya miqyasında ədalətsiz və qeyri-bərabər bölüşdürülməsinə laqeyd qalmayacağı ilə bağlı ifadə etdiyi mövqeyə uyğun olaraq irəli sürülüb və əldə edilmiş nəticəyə əsasən demək olar ki, ölkə başçısının pandemiya ilə bağlı əvvəlki təşəbbüsləri kimi, bu təşəbbüs də qısa müddət ərzində qlobal dəstək qazandı.

**Qətnaməyə, ümumilikdə, 133 dövlət həmmüəlliflik edib**

Hazırda bəşəriyyət qarşısında dayanan ən aktual problemin aradan qaldırılması üçün Azərbaycanın səyləri BMT-yə üzv dövlətlərin qlobal pandemiya və bu bəladan xilas olmağın yollarını müzakirə etdiyi bir vaxtda İrəvanın sessiyanı siyasiləşdirmək cəhdləri oldu. Nəticədə, bu dəfə də Ermənistan diplomatiyası pis vəziyyətdə qaldı və Azərbaycan Prezidenti İlham Əliyevin təklifi əsasında müzakirə edilən mövzu üzrə reallığa barışmalı oldu. Nəticədə bizim təklifimizlə bəşəriyyətin xeyrinə olan bir qətnamə qəbul edildi.

Qətnamə BMT üzv dövlətlərinə və digər əlaqədar qurumlara (beynəlxalq təşkilatlar, özəl sektor təmsilçiləri, vətəndaş cəmiyyəti üzvləri və s.) COVID-19 əleyhinə peyvəndlərin bütün dövlətlər arasında ədalətli bölüşdürülməsini təmin etmək istiqamətində müvafiq tədbirlər görməyə çağırış edir. Eyni zamanda,



peyvəndlərin ədalətli bölüşdürülməsini dəstəkləmək məqsədilə yaradılmış beynəlxalq təşəbbüslərə, o cümlədən COVAX təşəbbüsünə dəstək ifadə edən qətnamə bütün dövlətlərdən peyvəndlərin digər ölkələrə ixracı ilə bağlı mövcud olan lazımsız əngəlləri aradan qaldırmağa çağırır. Qətnaməyə, ümumilikdə 133 dövlət həmmüəlliflik edib ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir. Həmmüəlliflər sırasında dünyanın fərqli regionlarında yerləşən, iqtisadi göstəriciləri kəskin fərqlənən və fərqli siyasi qruplaşmalara məxsus olan ölkələr var. Qətnamənin ərsəyə gəlməsində konsensusa nail olunması üçün uzun müddətdir ki, Cenevrədə BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində danışıqlar aparılırdı.

**Bu, eyni zamanda, Azərbaycanın multikultural və tolerant siyasətə sadiq olmasının mahiyyətindən xəbər verir**

Məlumat üçün qeyd edək ki, ölkə başçısının təşəbbüsünə uyğun olaraq, bəhs olunan qətnamədən əvvəl 5 mart 2021-ci il tarixində Qoşulmama Hərəkatının Nyu-York şəhərində fəaliyyət göstərən Əlaqələndirmə Bürosu tərəfindən də müvafiq mövzuda Kommünike qəbul edilmişdi. Beləliklə, martın 23-də Azərbaycan Prezidentinin təklifi ilə dünyanın 200-dək dövlətindən nümayəndələrin iştirak etdiyi tədbirdə rəsmi Bakının mövqeyi yüksək qarşılanıb. Bu həssas məqamda planetin bütün dövlət və xalqlarının vaksinlərlə bağlı eyni hüquqa malik olmasının zərurəti, əlbəttə ki, Asiya və Afrika dövlətləri üçün olduqca vacib amildir. Dünya liderlərindən məhz İlham Əliyevin son bir il ərzində bir neçə dəfə pandemiya ilə bağlı incə məqamlara toxunması Azərbaycanın beynəlxalq miqyaslı aktor olmasının bariz nümunəsidir. Bu, eyni zamanda, Azərbaycanın multiukultral və tolerant siyasətə sadiq olmasının mahiyyətindən xəbər verir. Azərbaycan vaksinlərin dünyada ədalətli və əlçatan şəkildə bölgüsünün təşəbbüskarı, eyni zamanda COVAX-a vaksin üçün regionda ilk müraciət edən ölkə olub. Buna baxmayaraq, biz kənarda qalmışıq və bizə qarşı edilən ədalətsizlik, ikili standartlar burada da özünü göstərib.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bəzi ölkələr tələbatdan 2-3 dəfə artıq vaksin idxal ediblər. Bu işdə dünyanın qütbləşdiyini müşahidə etdik. Ölkə başçımız dünyada vaksinlərin ədalətli və əlçatan bölgüsünün təşkilində narahat edən məsələ bu idi. Biz Prezidentimizin uzaqgörənliyi sayəsində öz ehtiyatımızı təmin etmişik. Vətəndaşlarımızın sağlamlığı bizim üçün hər şeydən üstün olduğundan, dünyada ikili standartların olacağını nəzərə alaraq ehtiyat məqsədilə keyfiyyətli vaksinlər aldıq. Proses uğurla davam etdirilir. Biz Cənubi Qafqazda vakisinasiyaya başlamış ilk ölkəyik.

**ÜST Baş direktorundan İlham Əliyevə təşəkkür...**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib. Bu barədə T.A.Qebreyesus "Twitter" hesabında yazıb:

"BMT-nin İnsan Hüquqları Şurasında ədalətli, əlverişli, vaxtında və universal şəkildə COVID-19 peyvəndlərinə çıxışın əldə olunması ilə bağlı çağırışdakı liderliyinizə görə Prezident Əliyev, Sizə təşəkkür edirəm. Razıyam ki, biz vaksinlərin ədalətli paylanmasını təmin etmək üçün daha çox iş görməliyik. Peyvənd və sağlamlıq təminatı üçün birlikdə!"

Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur. Bu anlayış multikultralizmin hakim olduğu bütün dövlətlər üçün xarakterikdir. Hansısa qanunu və ya idarəetmə formasını istənilən vaxt yenisi ilə əvəzləmək mümkündür. Ancaq xalqın mədəniyyətini, yüz illər keçsə belə, dəyişmək mümkün deyil. Bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir. Ölkəmizdə kilsə, sinaqoq və məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərir. Təbii ki, belə bir mühit dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış mədəniyyətini həyat tərzinə çevirməsi nəticəsində formalaşıb. Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi ümummilli lider Heydər Əliyevdir. Ulu öndər ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Onun həyata keçirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Bir sözlə, multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir. Hazırda Azərbaycan dünyada bu dəyərlərin ən böyük ixracatçısına çevrilib.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**